**Qazaxıstan Respublikası ilə qida təhlükəsizliyi üzrə əməkdaşlıq**

- AQTA ilə Qazaxıstan Respublikasının müvafiq qurumları arasında qida təhlükəsizliyi və bitki sağlamlığı sahələrində əməkdaşlıq həyata keçirilir.
- 2024-cü il 23-25 sentyabr tarixlərində AQTA və Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının (EPPO) təşkilatçılığı ilə Bakı şəhərində EPPO Şurasının 74-cü sessiyası keçirilmişdir. Tədbirdə Qazaxıstan Respublikasının nümayəndə heyəti də iştirak etmişdir. Tədbir zamanı Qazaxıstan nümayəndə heyəti AQTİ-nin fəaliyyəti ilə tanış olmuşdur.
- 2024-cü il 2-4 iyul tarixlərində Bakı şəhərində "Dabaq Xəstəliyi üzrə Qərbi Avrasiya Yol Xəritəsi üçün Regional Məsləhətləşmə Qrupunun İclası" və Quba rayonunda xarici ölkələrdən dəvət olunmuş mütəxəssislərin iştirakı ilə dabaq xəstəliyi üzrə simulyasiya məşqləri keçirilmişdir. Sözügedən iclasda Qazaxıstan nümayəndə heyəti də iştirak etmişdir.
- 2024-cü il 1 mart tarixində AQTA sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Qazaxıstan səfirinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilmişdir. Görüş zamanı respublikamızda qida təhlükəsizliyinin təmin edilməsi ilə bağlı görülən işlər barədə müzakirələr aparılmışdır.
- 2023-cü il 27 dekabr tarixində AQTA nümayəndə heyəti ilə Qazaxıstan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Sənaye Kompleksində Dövlət Müfəttişliyi Komitəsinin sədr müavini Muxtar Aliyevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında videokonfrans formatında görüş keçirilmişdir. Görüşdə karantin nəzarətində olan məhsulların idxalı, ixracı və tranzit daşınması zamanı karantin fitosanitar nəzarətinin tənzimlənməsi, bitki karantini və mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq haqqında məlumat mübadiləsi aparılmışdır.
- 2023-cü il 9 dekabr tarixində Kodeks Alimentarius Komissiyasının regional əlaqələndirmə komitələrinin fəaliyyəti və regional koordinatorun seçimi prosesinə dair sabiq CCEURO Regional Koordinatoru kimi Qazaxıstan Respublikasının bu sahədəki təcrübəsinin öyrənilməsinə dair görüş keçirilmişdir.
- 2023-cü il 5 oktyabr tarixində AQTA-da Qazaxıstan Respublikasının Standartlaşdırma və Metrologiya İnstitutunun əməkdaşları ilə görüş təşkil edilmişdir. Görüşdə qonaqlara ölkələrimiz arasında idxal-ixrac əməliyyatları, Azərbaycan Respublikasında qüvvədə olan qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktlar, fitosanitar nəzarətində olan məhsullara dair tələblər, eləcə də AQTA-nın baytarlıq və fitosanitar nəzarət üzrə fəaliyyəti barədə məlumat verilmişdir.
- 2023-cü il 25-27 aprel tarixlərində Bakı şəhərində keçirilən xırdabuynuzlu heyvanların taunu və dabaq xəstəliklərinə həsr olunmuş beynəlxalq tədbirdə Qazaxıstan Respublikasının nümayəndə heyəti də iştirak etmişdir. Tədbir zamanı Qazaxıstan nümayəndə heyəti AQTİ-nin fəaliyyəti ilə tanış olmuşdur.